# “QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ“ mövzusunda festivalın

## ƏSASNAMƏSİ

**“QƏRBİ AZƏRBAYCANA QAYIDIŞ“**
FESTİVAL-KONQRES

NAXÇIVAN ŞƏHƏRİ
23-24 NOYABR 2023-CÜ İL

# ƏSASNAMƏ

1

## 1. Ümumi müddəalar

1.1. Qərbi Azərbaycana Qayıdış festivalı Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcması tərəfindən keçirilir;

1.2. Bu Əsasnamə festivalın keçirilmə müddəti və qaydalarını müəyyən edir.

2

## 2. Festivalın məqsədi

2.1. Bu gün Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin uzaqgörən siyasəti və uğurlu diplomatiyası sayəsində Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasında böyük yol qət edilib, azərbaycanlıların, o cümlədən Qarabağdan və Qərbi Azərbaycandan məcburi köçkün və qaçqın düşmüş vətəndaşlarımızın hüquqlarının müdafiəsi beynəlxalq səviyyəyə çıxarılıb. Ümummilli Lider Heydər Əliyevin siyasi irsinin davamçısı Prezident İlham Əliyev dövlətimizin milli maraqlarına və azərbaycançılıq ruhuna sadiq qalaraq Azərbaycanın tarixinə və mədəniyyətinə sahib çıxmasının əhəmiyyətini hər zaman vurğulayıb.

2020-ci ildə Azərbaycan Respublikası Prezidentinin siyasi iradəsi, diplomatik gücü və hərbi sərkərdəlik bacarığı nəticəsində 30 ilə yaxın işğal altında qalan torpaqlarımız 44 gün ərzində düşməndən azad edildi. 44 günlük Vətən müharibəsində Azərbaycanın qazandığı Zəfər tariximizə yeni bir salnaməni həkk etdi. Azərbaycan dövlətinin və xalqının qüdrətini, sarsılmaz iradəsini, Ordumuzun gücünü beynəlxalq səviyyədə nümayiş etdirən möhtəşəm qələbə yeni reallıqlar yaradıb. Azərbaycanın ağrılı problemlərindən olan Qarabağ məsələsi birdəfəlik həll edildi.

2

Qələbəmizdən doğan tarixi reallıqların nəticəsidir ki, qaręıda soydaęlarımızı Qərbi Azərbaycana qayıdıę gözləyir. Ölkə rəhbərinin də qeyd etdiyi kimi: “Hazırda isə tarixi qələbəmizdən sonra yaranan yeni reallıqda ən mühüm vəzifələrdən biri Qərbi Azərbaycandan qaçqın düęmüę vətəndaęlarımızın öz yurdlarına qayıtması məsələsidir”. Bu hədəfi Prezident İlham Əliyev 2022-ci il dekabrın 24-də Qərbi Azərbaycandan olan bir qrup ziyalı ilə görüęündəki nitqində bəyan etdi.

“Qərbi Azərbaycana qayıdıę” mövzusunda keçirilən festivalın əsas məqsədi Ermənistan Respublikasının inzibati sərhədləri daxilindəki qədim yurd yerlərimiz olan Qərbi Azərbaycan torpaqlarında xalqımızın min illərlə yaratdığı mədəniyyəti təbliğ etməklə yanaęı, Qərbi Azərbaycana qayıdıę prosesinə elm və təhsil ictimaiyyətinin dəstəyini ifadə etməkdir.

3

## 3. Festivalın iętirakçıları

3.1. Əslən Qərbi Azərbaycandan olan vətəndaęlar, muxtar respublikanın ali və orta ixtisas təhsili müəssisələrinin müəllim və tələbələri, eyni zamanda Qərbi Azərbaycan İcmasının, Azərbaycan Dövlət Pedaqoji Universitetinin, Bakı Dövlət Universitetinin, Azərbaycan Dövlət İqtisad Universitetinin, Azərbaycan Memarlıq və İnęaat Universitetinin, Azərbaycan Texniki Universitetinin, Bakı Ali Neft Məktəbinin, AMEA Naxçıvan Bölməsinin, AMEA Tarix İnstitutunun, eləcə də qardaę Türkiyədən Ankara Universitetinin, Hacettepe Universitetinin, Qazi Universitetinin, Atatürk Universitetinin, Qars Qafqaz Universiteti və İğdır Universitetlərinin heyətlərinin təmsil olunması nəzərdə tutulur. Eyni zamanda Naxçıvan Muxtar Respublikasının rayon İcra Hakimiyyətlərinin, Mədəniyyət və Təhsil Nazirliyinin, Ailə, Qadın və Uęaq Problemləri üzrə Dövlət Komitəsinin, Arxiv İdarəsinin, Yazıçılar və Rəssamlar Birliklərinin iętirakı nəzərdə tutulur.Birliklərinin iętirakı nəzərdə tutulur.

# 4.Festivalın təşkili

4.1. Festival iki gün davam edəcək:

## 23.11.2023

| | |
|---|---|
| Festivalın açılışı | Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyi, Naxçıvan Dövlət Universiteti və Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə |
| Muxtar respublikanın rayon icra hakimiyyətləri və yaradıcılıq təşkilatlarının iştirakı ilə bədii proqramlar | Qərbi Azərbaycana məxsus folklor nümunələrindən ibarət kompazisiyalara, kitab sərgisinə, kulinariya və maddi mədəniyyət nümunələrindən ibarət stendlərə baxış |
| Konsert proqramı | Qərbi Azərbaycan mahnıları və folklor nümunələrindən ibarət konsert proqramı |

## 24.11.2023

| | |
|---|---|
| Konqresin bölmə iclasları | “Qərbi Azərbaycana qayıdışa gedən yol” konqresinin bölmə iclasları |
| Qərbi Azərbaycandan olan sakinlərlə görüş | Muxtar respublikada yaşayan Qərbi azərbaycanlı sakinlərlə görüş |
| Qərbi Azərbaycan İcması ilə görüş | Qərbi Azərbaycan İcmasının Naxçıvan Muxtar Respublikasının şəhər və rayonları üzrə nümayəndələrinin müəyyən edilməsi məsələsinin müzakirəsi |

5

## 5. Festivalın keçirilmə vaxtı

5.1. Festivalın 23-24 noyabr 2023-cü il tarixlərində keçirilməsi nəzərdə tutulur.

6

## 6. Festivalın keçirilmə yeri

6.1. Festival Naxçıvan ęəhərində keçiriləcəkdir.

7

## 7. Festivaldan gözlənilən nəticələr

7.1. Qərbi Azərbaycanda ermənilərin və onlara havadarlıq edənlərin xalqımıza qaręı məqsədyönlü ęəkildə həyata keçirilən etnik təmizləmə və soyqırımı siyasəti, milli faciə və vandalizm faktları genię ęəkildə ictimaiyyətə çatdırılacaq.

7.2. Ermənilərin doğma torpaqlarımızda yerləędirilmələri, azərbaycanlıların planlı surətdə doğma yurdlarından qovulması ilə bağlı tarixi faktlara söykənilərək yeni, dolğun məlumatlar üzə çıxarılacaq.

7.3. Qərbi Azərbaycana məxsus maddi mədəniyyət nümunələri nümayię olunacaq.

7.4. Qərbi Azərbaycandan olan, muxtar respublikada yaęayan sakinlər ilk dəfə olaraq bir araya gələcək, ilk görüęləri keçiriləcək.

7.5. Prezident, Ali Baę Komandan cənab İlham Əliyevin dediyi: “Bizi Qərbi Azərbaycana böyük qayıdię gözləyir” hədəfi istiqamətində muxtar respublikanın bütün sakinləri öz birlik və əminliyini ifadə edəcək.